

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 230 (23.872)

10 dekabr 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## E.M.Məmmədovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Emin Məmmədəli oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 9 dekabr 2021-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşesi ilə görüşüb



Dekabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşesi general-mayor Zəkəriyə Yalçınla görüşmüşdür.

Ali Məclisin Sədri yeni vəzifəyə təyin olunması münasibətilə qonağı təbrik etmiş, Azərbaycan-Türkiyə münasibətlərinin hərbi sahədə uğurla davam etdirildiyini diqqətə çatdırmışdır. İkinci Qarabağ müharibəsinin qazanılmasında Türkiyənin tutduğu ədalətli mövqedən və Türkiyə Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsindəki rolundan bəhs edən Ali Məclisin Sədri bunu dostluq və qardaşlıq əlaqələrinin nəticəsi kimi dəyərləndirmiş, əlaqələrin bundan sonra da inkişaf edəcəyini vurğulamışdır.

Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşesi general-mayor Zəkəriyə Yalçın səmimi qəbula görə minnətdarlıq etmiş, dost və qardaş ölkə olan Azərbaycanın Naxçıvan Muxtar Respublikasında olmaqdan məmnunluğunu bildirmişdir. Zəkəriyə Yalçın bu gün ölkə prezidentləri tərəfindən qardaşlıq münasibətlərinin daha da inkişaf etdirildiyini və hərbi sahədə əməkdaşlığın genişləndirilməsində səylərini artıracağını qeyd etmişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsi inkişaf etdirilir

***Muxtar respublikada telekommunikasiya sahəsində yeni texnologiyaların istifadəsi, xidmət şəbəkəsinin müasir standartlara uyğunlaşdırılması və yeni xidmətlərlə bağlı müvafiq işlər müntəzəm şəraitdə həyata keçirilir, müasir telekommunikasiya xidmətləri istiqamətində irimiqyaslı layihələr icra olunur. Rabitə sahəsində gedən sürətli inkişaf əhalinin müasir rabitə xidmətləri ilə əhatə olunması istiqamətində işlərin davam etdirilməsinə əsas zəmin yaradıb. Bu gün muxtar respublikada sakinlərin müasir internet və rabitə xidmətləri ilə təmin edilməsi, göstərilən xidmətlərin hər bir sakinə əlçatan olması üçün kifayət qədər imkanlar və şərait var.***



Görülən işlərin nəticəsidir ki, bütün yaşayış məntəqələrində simli və simsiz internetə çıxış imkanları mövcuddur. Bu gün özünün yüksəliş dövrünü yaşayan muxtar respublikamızda uğurla həyata keçirilən sosial siyasət əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmiş, geniş vüsət alan tikinti, abadlıq və quruculuq işləri, müasir müəssisələrin inşa edilməsi insan amilinə göstərilən diqqət və qayğının bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə 2020-ci ildə Culfa və Kəngərli rayonlarında telekommunikasiya sistemləri və rabitə evləri istifadəyə verilmiş, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binalarda rayon rabitə idarələri, "Naxtel" müştəri xidmətləri, "Naxçıvanpoçt" publik hüquqi şəxsin rayon filiallarının fəaliyyəti üçün zəruri iş şəraiti yaradılmışdır ki, bununla da muxtar respublikanın rayon mərkəzlərində fəaliyyət göstərən bütün rabitə idarələri və mərkəzi poçt bölmələri müasir inzibati binalarla təmin olunmuşlar. Bunlarla yanaşı, muxtar respublikanın bütün yeni istifadəyə verilən kənd mərkəzlərində rabitə xidmətləri üçün müvafiq sahələr ayrılır, yeni rabitə evləri istifadəyə verilir, müasir tələblərə cavab verən yeni avtomat telefon stansiyaları quraşdırılır, habelə bir sıra yerlərdə aztutumlu telefon stansiyaları yüksək montaj tutumuna malik yeni nəsil avtomat telefon stansiyaları ilə dəyişdirilir. Cari ilin müvafiq dövrü ərzində Sədərək Radio-Televiziya Ötürücü Stansiyası, Ordubad rayonunun Nüsnüs, Yuxarı Əndəmic, Aşağı Əndəmic və Dırnıs, Babək rayonunun Araz və Göynük, Şərur rayonunun Dərvişlər və



Şəhriyar kəndlərində yeni rabitə evləri istifadəyə verilmiş, müasirtipli avtomat telefon stansiyaları quraşdırılmışdır.

Göstərilən dövlət qayğısı muxtar respublikada fəaliyyət göstərən mobil operatorları da əhatə etmiş, onların fəaliyyəti üçün bütün infrastruktur yaradılmışdır. Əhalinin internet xidmətlərinə olan tələbatının təmin edilməsi, eyni zamanda keyfiyyətli, kəsintisiz və çoxçeşidli rabitə xidmətlərinin təşkili məqsədilə şəhər, rayon mərkəzlərində və kəndlərdə fəaliyyət göstərən avtomat telefon stansiyalarında internet platalarının sayı da artırılmışdır. Həmçinin muxtar respublikanın şəhər, rayon və kəndlərində rabitə infrastrukturunun yenidən qurulması, xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi məqsədilə müvafiq yenilənmə işləri görülür, xətt təsərrüfatında əsaslı təmir işləri aparılır, sakinlər internet xidmətləri ilə təmin olunurlar. Bunlarla yanaşı, "Evədək optika" layihəsi də uğurla davam etdirilir ki, GPON (Giqabyte Passive Optical Network – Qiqabit tutumlu Passiv Optik Şəbəkə) texnologiyası əsasında fərdi mənzillərə, idarə, müəssisə və digər qurumlara fiber-optik xətlər çəkilmiş, müvafiq avadanlıqlar quraşdırılmış, və istismar müddəti ərzində fiber-optik xətlərdə yaranmış nasazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Bu da muxtar respublikada rabitə əlaqələrinin tam kəsintisiz həyata keçirilməsində, elektron hökumət, genişzolaqlı internet, 4-cü nəsil xidmətlərin və digər informasiya-kommunikasiya texnologiyaları layihələrinin icrasında əvəzsiz rola malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən informasiya texnologiyalarının müasir çağırışlar əsasında həyata keçirilməsi, əhaliyə yüksəkkeyfiyyətli internet və rabitə xidmətlərinin göstərilməsi məqsədilə nazirliyin maddi texniki bazası davamlı olaraq möhkəmləndirilir, müasir avadanlıqlarla təchiz olunur. Nazirlik tərəfindən ixtisaslı kadrların hazırlanması istiqamətində zəruri tədbirlər də davam etdirilir. İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində açılan kurslar təcrübəli müəllimlər tərəfindən tədris olunur. Gənc proqramçıların peşə istiqaməti üzrə biliklərinin artırılması sahəsində də müvafiq işlər həyata keçirilir, rabitə idarələrinin müvafiq peşə ixtisasına malik olmayan əməkdaşlarının ixtisasartırma kurslarında iştirakı da təmin edilir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası istiqamətində görülən tədbirlər çərçivəsində pedaqoji profilli ixtisasları bitirən 52 gənc ümumtəhsil müəssisələrində müxtəlif vəzifələrə təyin olunmuş, onlarla görüş keçirilmişdir.*

## 52 gənc ümumtəhsil məktəblərində işlə təmin olunub



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilməsindən danışmışdır.

Vurğulanmışdır ki, bu gün muxtar respublikada gənclərə göstərilən yüksək qayğılardan biri də pedaqoji profilli ixtisasları bitirmiş gənclərin işlə təmin olunmasıdır. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli Qərarı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumtəhsil və ilk peşə ixtisas təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"na uyğun olaraq pedaqoji profilli ixtisasları bitirmiş gənclərin işə qəbulu üzrə müsabiqələr keçirilir. Bu isə səriştəli, bacarıqlı kadrların məktəblərə gəlməsinə, ehtiyac olan təhsil müəssisələrində yerləşdirilməsinə gətirib çıxarır.

Bildirilmişdir ki, dövlət ümumtəhsil müəssisələrinə vakant vəzifələrə işə qəbul üçün 14 avqust 2021-ci il tarixdə elan edilmiş müsabiqənin 22-30 noyabr 2021-ci il tarixlərdə keçirilmiş test imtahanlarının nəticəsinə uyğun olaraq 16-sı psixoloq, 6-sı uşaq birliyi təşkilatının rəhbəri, 9-u laborant, 19-u kitabxana müdiri və 2-si kitabxanaçı olmaqla, ümumilikdə, 52 gənc işə qəbul olmuşdur.

Təhsil naziri yeni fəaliyyətə başlayan gənc kadrları təbrik etmiş, onlara yeni vəzifələrində uğurlar arzulamışdır.

Yeni fəaliyyətə başlayacaq gənclərə əmək funksiyaları haqqında məlumat verilmişdir. Gənc kadrlar adından çıxış edən Tünzalə Həsənova həyata keçirilən təhsil siyasəti və gənclərə göstərilən yüksək qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Gənc kadrlarla görüşdən sonra onlara ümumtəhsil müəssisələrində üzərlərinə düşən vəzifələrlə bağlı seminar keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

***1948-ci il dekabrın 10-da Birləşmiş Millətlər Təşkilatı Baş Məclisi İnsan Hüquqları haqqında Ümumi Bəyannamə qəbul etmişdir. Həmin tarixdən etibarən hər il dekabrın 10-u bütün dünyada "İnsan Hüquqları Günü" kimi qeyd olunur.***

# Muxtar respublikada insan hüquq və azadlıqları etibarlı şəkildə qorunur

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan müstəqil Azərbaycanda həyata keçirilmiş genişmiqyaslı islahatlar, insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində baş verən köklü dəyişikliklər məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider tərəfindən həyata keçirilmiş hüquq islahatları Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır. Ölkəyə rəhbərlik etdiyi dövrlərdə insan hüquq və azadlıqlarının qorunmasına diqqət yetirən ulu öndər demişdir: ***"Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və ya anlamalı olduğu əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur".***

1995-ci il noyabrın 12-də ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu və insan hüquq və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul olunması ölkəmizdə insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuş, hüquq islahatlarının keyfiyyətcə yeni mərhələsinin başlanmasına təkan vermiş, çox mühüm normativ-hüquqi aktlar və bir sıra Dövlət proqramları qəbul edilmişdir. Ulu öndər tərəfindən imzalanan "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərman və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 18 iyun tarixli Sərəncam ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə insan hüquqlarının davamlı inkişafını təmin etmiş, qanunvericilik və institusional islahatlara təkan vermişdir. 1996-2000-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulan Azərbaycan Respublikası 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etmişdir. Avropa Şurasının bu mühüm sənədinə münasibət bildirməklə Azərbaycan beynəlxalq təşkilatla sıx əməkdaşlığa hazır olduğunu və insan hüquqlarının qorunması sahəsində öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha bəyan etmişdir.

Bu gün Azərbaycanın müasir inkişafı dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə bu sahədə kompleks tədbirlər həyata keçirilir. Demokratik, hüquqi dövlətin qanunun aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsaslarının möhkəmləndirilməsi məqsədilə Prezident cənab İlham Əliyev tərəfindən 2006-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" və 2011-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni mərhələyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

***"Hər bir ölkə yalnız sabitlik, təhlükəsizlik və sülh şəraitində çətinlikləri aradan qaldıra və inkişaf edə bilər. Azərbaycanın nümunəsi bir daha bunu əyani şəkildə təsdiq edir",*** – deyən ölkə başçısının uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan bu gün öz iqtisadi qüdrətini daim artıran, eyni zamanda mütərəqqi beynəlxalq normalara uyğun insan hüquq və azadlıqları sistemini formalaşdıran dövlətə çevrilmişdir. Cənab Prezidentin apardığı gərgin daxili və xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu artmış, dünya dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq işini dəstəkləyərək, ölkəmizin ərazi bütövlüyünü tanımışdır.

Cənubi Qafqazda ən qüdrətli və güclü orduya malik olan ölkəmiz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüququn hamılıqla tanınmış ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında qeyd-şərtsiz həll olunması sahəsində zəruri addımlar atmışdır. Bütün bunlara baxmayaraq, 27 sentyabr 2020-ci il tarixdən başlayaraq Ermənistan silahlı qüvvələrinin beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onlara əlavə edilmiş protokolları, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycana qarşı həyata keçirdiyi növbəti hərbi təcavüz aktı nəticəsində mülki əhali arasında tələfat olmuş, təhsil və səhiyyə müəssisələri, sosial, mədəni, tarixi, dini obyektlər ağır artilleriya qurğularından və qadağan olunmuş silahlardan istifadə edilməklə dağıdılmışdır. Ölkəmiz erməni təxribatının qarşısını almaq məqsədilə Vətən müharibəsinə başlamış və rəşadətli Ordumuz 30 il işğal altında olan torpaqlarımızı azad edərək noyabrın 10-da tarixi qələbə qazanmış, bununla da Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasına nail olunmuşdur. Bu qələbə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun şücaəti nəticəsində mümkün oldu. Vətən müharibəsi bir daha göstərdi ki, hərbçilərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədirlər. Bütün bunlar həm də dövlət-xalq-ordu birliyinin nəticəsidir. Xalqla ordu arasında möhkəm əlaqənin, sarsılmaz birliyin mövcud olması ordumuzun gücünü daha da artırır.

Təhlükəsizliyin carçısı rolunda çıxış edən, sülh və əmin-amanlıq şəraitində daxili imkanlardan və ehtiyat mənbələrindən səmərəli istifadə edərək Azərbaycanın sürətlə tərəqqi edən diyarına çevrilmiş Naxçıvan Muxtar Respublikasında da insan hüquq və azadlıqları ilə bağlı həyata keçirilən mühüm islahatlar ardıcıl şəkildə davam etdirilir. Ölkə başçısının "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada bu istiqamətdə inkişafı təmin etmişdir. Belə ki, fərmanın qəbul edilməsindən ötən dövr ərzində hüquq institutlarının təkmilləşdirilməsi, insan hüquqlarının müdafiə mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması, əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdir.

Muxtar respublikada insan hüquq və azadlıqlarını daim diqqət mərkəzində saxlayan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2006-cı ildə insan hüquqlarının müdafiəsi üzrə orqanlar sistemində yeni və müstəqil məhkəmədənkənar alternativ hüquq müdafiə vasitəsi olan Müvəkkil təsisatı yaradılmışdır. Ötən dövrdə təsisatın fəaliyyətinin təkmilləşdirilməsi diqqətdə saxlanılmış, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa edilmiş bir sıra dəyişikliklərlə təsisatın səlahiyyətləri daha da artırılmışdır. Həyata keçirilmiş bu tədbirlər insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinə xidmət edir.

Muxtar respublikada səmərəli hüquq müdafiə mexanizmi kimi formalaşan Müvəkkil təsisatı bu gün fəaliyyətini preventiv mexanizm funksiyalarının icrası, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması, beynəlxalq təcrübə mübadiləsi, əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi və hüquqi maarifləndirmə, bu sahədə dövlət və yerli özünüidarəetmə orqanları, kütləvi informasiya vasitələri ilə əməkdaşlığın davamlı inkişaf etdirilməsi istiqamətində qurmuşdur.

Muxtar respublikada iqtisadi və sosial sahələrdə həyata keçirilən tədbirlər davamlı inkişafı təmin etməklə, əhalinin səmərəli məşğulluğuna da yeni imkanlar yaratmışdır. Həyata keçirilən hərtərəfli sosial müdafiə tədbirləri, xüsusilə əhalinin məşğulluğunun təmin olunması istiqamətində aparılan islahatlar, reallaşdırılan layihələr yeni iş yerlərinin açılması ilə yanaşı, sosial cəhətdən həssas əhali qruplarının məşğulluqda iştirak payını da yüksəltmiş, onlar özünüməşğulluq proqramlarına cəlb olunmuşlar. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın məqsədi əhalinin məşğulluğuna yönəldilən tədbirlərin davamlılığına nail olunması, yeni iş yerlərinin yaradılması və özünüməşğulluğun təmin edilməsi, əmək bazarında real vəziyyətin təhlil edilməsi və tələbata uyğun kadr hazırlığının aparılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsidir. Bu proqramda nəzərdə tutulmuş tədbirlərin icrası və həyata keçirilən mühüm layihələr muxtar respublikanın yeni sosial-iqtisadi inkişafına uyğun olaraq əhalinin məşğulluğunun artırılmasını, onların rifahının daha da yüksəldilməsini, əmək bazarının tələbləri əsasında kadr hazırlığının aparılmasını və özünüməşğulluq imkanlarını genişləndirir.

Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin olunması və onların sosial statusunun bərpası xüsusi diqqətdə saxlanılan məsələlər sırasındadır. Belə ki, ötən dövrdə muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası, məşğulluq imkanlarının və peşə hazırlığının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, onlara göstərilən sosial xidmət, inklüziv təhsilin keyfiyyətinin daha da artırılması istiqamətində qəbul edilmiş Dövlət proqramlarının uğurla icrası təmin edilmiş, Məhdud Fiziki İmkanlı Şəxslər üçün Naxçıvan Regional İnformasiya Mərkəzində müasir təlis vasitələri ilə təmin olunmuş təlim-bərpa otağı istifadəyə verilmiş, fərdi, ailə və uşaq istiqamətli psixoloji dəstək xidməti yaradılmışdır. Görülən işlərin davamlılığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il 15 mart tarixdə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Proqramda nəzərdə tutulmuş tədbirlərin icrası bu kateqoriyaya aid uşaqların təhsilə cəlbində davamlılığın təmin edilməsini, onların sosial müdafiəsini və cəmiyyətə fəal inteqrasiyasını daha da sürətləndirir.

Ahıl vətəndaşların sosial vəziyyətlərinin yaxşılaşdırılması muxtar respublikada daim diqqətdə saxlanılan sahələrdəndir. Bu gün ahıl vətəndaşlara göstərilən xidmətlərin həcmi və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlir, onların maddi və mənəvi tələbatlarının ödənilməsi, müxtəlif növ xidmətlərin göstərilməsi, sağlamlıqlarının qorunması və tibbi reabilitasiyası həyata keçirilir, muxtar respublikada ahıl vətəndaşların sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində davamlı inkişafı təmin edilir.

Muxtar respublikada müharibə veteranlarının və şəhid ailələrinin sosial müdafiəsinin və rifah halının yaxşılaşdırılması sahəsində də ardıcıl tədbirlər həyata keçirilir. Bu kateqoriyadan olan şəxslərə xüsusi diqqət və hərtərəfli dövlət qayğısı göstərilir, onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Müvafiq kateqoriyadan olan vətəndaşlar müxtəlif sosial proqramlara, aktiv məşğulluq tədbirlərinə cəlb edilir, mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə onlar mənzil və avtomobillərlə təmin olunurlar. Həyata keçirilən bu tədbirlər Vətən qarşısında borclarını layiqincə yerinə yetirən, vətənpərvərlik nümunəsi göstərən insanların fəaliyyətinə dövlətimizin verdiyi yüksək qiymətdir.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət qadın siyasəti qadınların hüquqlarının etibarlı müdafiəsini təmin etməklə sosial-iqtisadi, elmi-intellektual potensialının daha da artırılmasına, onların ictimai-siyasi, sosial-mədəni həyata daha fəal cəlbinə geniş imkanlar yaradır. Muxtar respublikada qadınların sahibkarlıq fəaliyyəti ilə məşğul olması, kredit resurslarından, bazar və müxtəlif imkanlardan istifadəsi, qadınların iqtisadi təşəbbüskarlığının artması, mikro, kiçik və orta biznesdə geniş təmsil olunması, məşğulluğun təmin edilməsi və onların peşə kurslarına cəlb olunması üçün geniş dövlət dəstəyi göstərilir. Həyata keçirilən bütün tədbirlər qadın sahibkarlığın inkişafını əhəmiyyətli dərəcədə artırır.

Muxtar respublikada gənclərin vətənpərvər ruhda formalaşmasına, yüksək səviyyədə təhsil almasına, turizm imkanlarının onlar arasında tanıdılmasına və təbliğinə, onların intellektual səviyyəsinin yüksəldilməsinə və asudə vaxtlarının səmərəli keçirilməsinə, gənc nəslin sağlamlığının qorunmasına və gənclərin məşğulluq məsələlərinə diqqət günü-gündən artırılır, elektron kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, yeni məktəb binaları, idman mərkəzləri və digər obyektlər tikilir və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilir. Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən birini də gənclərin sosial problemlərinin həlli, xüsusilə də mənzil şəraitinin yaxşılaşdırılması təşkil edir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yeni yaşayış kompleksləri tikilərək istifadəyə verilir, gənclərin güzəştli şərtlərlə mənzil sahibi olmaları üçün tədbirlər görülür.

Muxtar respublikada azadlıqdan məhrum edilmiş şəxslərin saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması, əmək hüquqlarının təmin edilməsi, cəmiyyətə adaptasiyası və müxtəlif peşə vərdişlərinə yiyələnməsi daim diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin nəzdindəki yaradıcılıq və istehsalat sahələrində məhkumlar müxtəlif peşələr üzrə kurslara cəlb edilir, onların əl işləri müxtəlif sərgilərdə nümayiş etdirilir, azadlığa buraxıldıqdan sonra sosial adaptasiyası və özünüməşğulluğun təmin edilməsinə geniş imkanlar yaradılır. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan humanist cəza siyasəti muxtar respublikada uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə cəzaçəkmə müəssisələrində cəzaçəkən məhkumların barəsində cəza siyasətinin humanizm dəyərləri əsasında inkişaf etdirilməsi üzrə tədbirlərin uğurla həyata keçirilməsi onların islah edilmə prosesinin sürətlənməsini, normal sosial faydalı həyata adaptasiya olunmasını və bu sosial qrupdan olan şəxslərin hüquqlarının daha səmərəli müdafiəsini təmin edir.

Ötən dövrdə muxtar respublikada miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi uğurla davam etdirilmişdir. Belə ki, miqrasiya proseslərinin idarə edilməsi və tənzimlənməsində innovativ metodların tətbiqi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı bütün zəruri tədbirlərin reallaşdırılması təmin olunmuş, əməkçi miqrantların qanunsuz olaraq əmək fəaliyyətinə cəlb edilməsinin qarşısı alınmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrantların Saxlanılması Mərkəzində saxlanılan miqrantların hüquqlarının qorunması muxtar respublikada miqrasiya sahəsində dövlət siyasətinin beynəlxalq standartlara uyğun həyata keçirilməsinin bariz nümunəsidir.

Muxtar respublikada sosial-iqtisadi həyatın bütün sahələrində informasiya-kommunikasiya sistemlərinin yenilənməsi və yeni nəsil texnologiyaların tətbiqi, dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılması, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsi, redaksiyaların maddi-texniki bazasının mərhələli şəkildə yenilənməsi və səmərəli fəaliyyətinə zəruri şəraitin yaradılması, jurnalist peşəkarlığının yüksəldilməsi, azad mətbuatın fəaliyyət göstərməsi, keyfiyyətli və sürətli internetə çıxış imkanlarının yaradılması, söz və fikir azadlığının təmin olunması insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır. Həyata keçirilmiş bu tədbirlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mətbuata və kütləvi informasiya vasitələrinə göstərdiyi diqqət və qayğının parlaq təzahürü olmaqla yanaşı, həm də ictimai tribuna kimi insan hüquqlarının təminatı sahəsində görülən işlərin davamıdır.

*Bu gün muxtar respublikanın yüksələn iqtisadi inkişafı, hər bir sosial qrupa ünvanlanmış sosial-iqtisadi layihələrin ardıcıl və uğurla həyata keçirilməsi əhalinin rifah halının daha da yaxşılaşmasına, nəticə etibarilə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə, etibarlı müdafiəsinə və davamlı inkişafına öz töhfəsini verməkdədir. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı tərəfindən insan hüquq və azadlıqlarının etibarlı təmin edilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılacaq, bu sahədə həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

# "Beynəlxalq həftə" layihəsinə yekun vurulub

*"Naxçıvan" Universitetində dekabrın 6-dan start götürən "Beynəlxalq həftə" layihəsinə yekun vurulub. Layihənin sonuncu günündə "Almaniya günü" keçirilib.*

Tədbirdə "Naxçıvan" Universitetinin rektoru Nurlana Əliyeva "Beynəlxalq həftə" və onun məqsədi barədə məlumat verib.

Rektor bildirib ki, bu gün "Naxçıvan" Universiteti ölkəmizin ali məktəbləri sistemində yüksək nüfuzu, hərtərəfli inkişafı, yüksəkixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyəti ilə seçilir. Buna Avropanın bir sıra universitetləri ilə qurulan sıx beynəlxalq əməkdaşlıq və ali təhsil ocağının tərəfdaşı olduğu bir çox beynəlxalq layihə ilə nail olunub. Belə ki, dünyanın 52 universiteti ilə tədris və elmi sahədə əlaqə saxlayan, iki beynəlxalq universitetlər birliyinin üzvü olan "Naxçıvan" Universiteti inkişaf etmiş bütün ali təhsil müəssisələri kimi ən müasir maddi-texniki bazaya malikdir.



Universitetin Xarici dillər fakültəsində Alman dili filologiyası ixtisasının tədris olunduğunu vurğulayan Nurlana Əliyeva bildirib ki, ali təhsil ocağında bu dili öyrənmək üçün hərtərəfli şərait mövcuddur. Ən müasir əyani tədris vəsaitləri və informasiya texnologiyaları ilə təmin olunmuş sinif otaqları, ixtisaslı müəllimlər alman dilinin yüksək səviyyədə tədrisini təmin edib.

"Naxçıvan" Universitetində artıq üçüncü dəfə olduğunu bildirən Alman Dili Tədrisi Mərkəzinin direktoru Zəhra Əliyeva bundan məmnunluğunu ifadə edib. İlk dəfə 2017-ci ildə gəldiyi ali təhsil ocağının ötən illərdə daha da inkişaf etdiyini diqqətə çatdıran Zəhra Əliyeva bunu muxtar respublikada elm və təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürü kimi qiymətləndirib.

Alman Dili Müəllimləri Birliyi idarə heyətinin sədri Lətifə Qurbanova birliyin fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edib ki, 2018-ci ildə yaradılan birliyin başlıca məqsədi Azərbaycanın orta və ali təhsil müəssisələrində alman dili fənnini tədris edən müəllimləri öz ətrafında birləşdirmək, ölkəmizdə alman dilinin inkişafına yeni töhfələr vermək və birliyin ətrafında geniş şəbəkə yaratmaqdır. Birliyin 100-dən artıq üzvü olduğunu deyən sədr bildirib ki, birlik qısa vaxt ərzində bir çox tədbirlərdə iştirak edib. "Naxçıvan" Universitetində keçirilən tədbir də bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Alman Akademik Mübadilə Xidmətinin metodisti Mara-Lisa Gezer xidmətin dünya üzrə gördüyü ümumi işlər barədə məlumat verib. Bildirib ki, xidmət son illər Azərbaycanda alman dili müəllimləri üçün də çoxsaylı təlim kursları təşkil edib.

Qeyd edək ki, "Almaniya günü"ndə Alman Dili Tədrisi Mərkəzinin direktoru, Alman Dili Müəllimləri Birliyinin üzvləri – Azərbaycan Dillər Universitetinin Alman dilinin fonetikası və qrammatikası kafedrasının müdiri, Bakı Slavyan Universitetinin Alman filologiyası kafedrasının müdiri, "YFU - Azərbaycan" şagird mübadiləsi proqramının rəhbəri, Avstriya Mübadilə Xidmətinin nümayəndəsi, Gürcüstan Höte İnstitutunun Azərbaycan üzrə koordinatoru iştirak ediblər. Qonaqların çıxışları dinlənilib, alman dilinin tədrisinin daha səmərəli təşkili üçün görüləcək işlərdən söhbət açılıb.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

---

*Dövlət proqramı icra olunur*

# İnnovativ dərnəklər vasitəsilə sağlamlıq imkanları məhdud uşaq və gənclərin istedad və bacarıqları üzə çıxarılır

***Sağlam gəncliyin formalaşmasında və inkişafında muxtar respublikamızın məktəbdənkənar təhsil müəssisələrində yaradılan, müasir dövrün tələblərinə cavab verən innovativ dərnəklərin rolu böyükdür. Xüsusilə də sağlamlıq imkanları məhdud uşaq və gənclərin istedad və bacarıqlarını ictimaiyyətə tanıtmaq, onların yaradıcılıq imkanlarına, fəaliyyətlərinin stimullaşdırılmasına, cəmiyyətə inteqrasiyasına dəstək göstərmək işində bu dərnəklərin rolu əvəzedilməzdir. Muxtar respublikamızda innovativ dərnəklər bir çox məktəbdənkənar təhsil müəssisələrində fəaliyyət göstərir. Həmin müəssisələrdən biri də Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzidir. Dekabrın 4-də həmin mərkəzdə 3 dekabr – Beynəlxalq Əlillər Günü ilə bağlı sağlamlıq imkanları məhdud uşaqların əl işlərindən ibarət sərgi keçirildi, innovativ dərnəklərə ekskursiyalar edildi, sağlamlıq imkanları məhdud uşaqlar üçün 10 günlük bijuteriya kursu təşkil olundu. Biz də həmin gün sərgi ilə tanış olduq.***





Mərkəzin direktoru Ceyran Alməmmədova ilə söhbətimiz zamanı bildirdi ki, təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, təhsilin bütün pillələri, eləcə də məktəbdənkənar təhsil üzrə yaradılan müasir tədris şəraiti uşaq və gənclərin maraqlarına uyğun müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə iştirakına geniş imkanlar açır. Bu mənada, mərkəzdə yaradılan innovativ dərnəklər uşaq və gənclərin maraq və bacarıqlarının, intellektual səviyyələrinin və yaradıcılıq qabiliyyətlərinin inkişafı, asudə vaxtlarının səmərəli təşkilində böyük əhəmiyyət daşıyır. Həmin innovativ dərnəklər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə 2019-cu ilin oktyabrın 26-da fəaliyyətə başlamışdır. Mərkəzdə robotexnika,




memarlıq-dizayn, mental aritmetik, xalçaçılıq, metal üzərində bədii döymə, ağac üzərində oyma, ebru sənəti, qum sənəti, dulusçuluq, dram, gimnastika, sürətli oxu və digər dərnəklər olmaqla, ümumilikdə, 14 adda innovativ dərnək vardır. Həmin dərnəklərə sağlamlıq imkanları məhdud uşaq və gənclər cəlb edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq olunan "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası istiqamətində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə mərkəzdə mütəmadi olaraq dərnəklərə üzv olan sağlamlıq imkanları məhdud uşaqların əl işlərindən ibarət sərgilər keçirilir. Bu onların istedad və bacarıqlarının üzə çıxarılması, asudə vaxtlarının səmərəli təşkilində çox mühüm rol oynayır.

Mərkəzdə sağlamlıq imkanları məhdud uşaq və gənclərlə, onların dərnək rəhbərləri ilə həmsöhbət olduq.

Bədii tikmə dərnəyinin rəhbəri Şükufə Məmmədova illərdir, dekorativ-tətbiqi sənətin bir növü olan bədii tikmə sənətini uşaqlara öyrədir. Bu sənətin tarixi haqqında məlumat verən müsahibim deyir ki, orta əsrlər dövründən etibarən Naxçıvanda tikmə sənəti geniş yayılıb, bu sənətlə məşğul olan ustalar rəngarəng ipək və yun saplardan, həndəsi və nəbati naxışlar əsasında düzülmüş pilləklərdən istifadə etməklə tikmə sənətinin müxtəlif növlərini yaradıblar. Sevindiricidir ki, cilalana-cilalana dövrümüzə qədər gəlib çatan bədii tikmə sənəti bu gün də muxtar respublikamızda yaşadılır. Bu həm də milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq baxımından vacib əhəmiyyət kəsb edir. Biz də bu sahədə həvəsi, bacarığı olan uşaqları mərkəzdə dərnəyə üzv qəbul edirik. Onların içərisində bu sənət sahəsinə maraqgöstərən sağlamlıq imkanları məhdud uşaqlarımız da vardır. Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi Leyla Bayramova bir ildir, dərnəyə gəlməyinə baxmayaraq, çox gözəl tikmə nümunələri hazırlayır. Leylaya bu sənətin bütün sirlərini öyrədirəm. Muncuqla, pilləklə, mat, ipək saplarla işləyirik. Onun əl işləri muxtar respublikada, mərkəzdə keçirilən sərgilərdə, tədbirlərdə nümayiş olunur və özünə yer alır. Sərgi-satışlardan əldə olunan gəlir isə onların özlərinə verilir. Bu onları həm həvəsləndirir, həm də dərnəyə üzv olmaq istəyənlərin sayını artırır.

Mərkəzdə yaradılan dulusçuluq, metal üzərində bədii döymə, ağac üzərində oyma və xalçaçılıq dərnəkləri gənclərə xalq yaradıcılığı nümunələrini, dekorativ-tətbiqi sənətin sirlərini öyrətmək və bu sənət sahələrini yaşatmaq baxımından mühüm əhəmiyyət daşıyır. Dulusçuluq dərnəyinin rəhbəri Elnur Əliyev artıq üçüncü ildir ki, bu sənətin incəliklərini uşaqlara öyrədir. Müsahibim bildirir ki, uşaqlarla birgə gil və digər keramika materiallarından müxtəlif əşyalar – rəngli, şirli, müasir qablar, dekorativ əşyalar hazırlayırıq. Əl əməyinə əsaslanan, böyük zəhmət tələb edən bu işlə sağlamlıq imkanları məhdud uşaqlar da maraqlanır və onlar gözəl dulusçuluq nümunələri ərsəyə gətirirlər. Onlardan biri olan Tofiq Həsənov 6 yaşından Estetik Tərbiyə Mərkəzində, sonra isə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində müxtəlif dərnəklərə yazılıb. Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbi bitirən Tofiq indi həm bədii tikmə, həm aplikasiya, həm də dulusçuluq sahəsində öyrəndiklərini tətbiq edir. Tofiqlə söhbət zamanı dedi ki, hazırda İkinci Qarabağ müharibəsində işğaldan azad edilən torpaqlarımızın motivlərini hazırladığı dulus nümunələri üzərində işləyir. O, möhtəşəm Şuşa qalasının motivini keramika materialları vasitəsilə işləyib. Həmçinin ötən il, eləcə də bu il mərkəzdə keçirilən sərgilərdə iştirak edib və əl işlərinə görə diploma layiq görülüb.

32 ildir ki, aplikasiyanın sirlərini şagirdlərinə öyrədən Püstə Alıyeva qeyd edir ki, aplikasiya dekorativ-tətbiqi sənətin geniş yayılmış növüdür. Aplikasiya latıncadan tətbiq etmək mənasını verir və hər hansı materialdan kəsilmiş hissələrin müəyyən bir səth üzərində yapışdırılması vasitəsilə yaradılmış bədii təsvirdir. Aplikasiya üsullarından istifadə etməklə parça üzərində müxtəlif mövzulu kompozisiyalar yaratmaq, paltarların, divar pannolarının, məişət əşyalarının bəzədilməsində istifadə etmək olar. Dərnək rəhbəri onu da bildirir ki, dörd ildir, xüsusən sağlamlıq imkanları məhdud uşaqlarla məşğul olur. Hazırda mərkəzdə bu sosial kateqoriyaya aid 10 uşaq və gənclə işləyir. "6, 12, 16, 18, 22 yaşlarında dərnək üzvlərim var", – deyən Püstə xanım onlarla işləməkdən zövq aldığını vurğulayır. Özcan Allahverdiyev də onun şagirdidir. Sonradan yaranan bir xəstəliklə danışma və duyma qabiliyyətini itirən Özcan Naxçıvanda böyüyüb, boya-başa çatıb. Müsahibim deyir ki, onun çox yaxşı düzmə qabiliyyəti var və işlədiyi aplikasiya nümunələri peşəkarlığı ilə seçilir. Buna görə də sərgilərdə çox bəyənilir və yer tutur.

Dekorativ rəsm dərnəyinin rəhbəri Səkinə Qarayeva ilə həmsöhbət oluruq. O, 15 ildir ki, bu sənət sahəsində çalışır və xalq yaradıcılığının inkişafındakı səmərəli fəaliyyətinə görə 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilib. Səkinə xanım vurğuladı ki, muxtar respublikada bütün sahələrdə istedadlı gənclər yetişir. Bu gün rəssamlıq sənətinə maraq göstərən sağlamlıq imkanları məhdud uşaqların gələcəkdə yaxşı sənət adamı kimi formalaşmasında innovativ dərnəklərin böyük rolu vardır. Dekorativ rəsm dərnəyinə də onların maraq göstərməsi məni hədsiz sevindirir.

Səkinə xanımın dərnək üzvlərindən biri Ərkan Əsgərovla həmsöhbət olduq. O dedi: "Babək rayonunun Naxışnərgiz kəndindənəm, X sinifdə təhsil alıram. III sinifdə oxuyandan müxtəlif şəkillər çəkirəm. Ötən il valideynim mərkəzə müraciət etdi. Kompozisiya, natürmort, portret və digər janrlarda rəsmlər çəkirəm. Əl işlərim Babək rayonunda, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində, mərkəzdə keçirilən sərgilərdə nümayiş olunub. Son vaxtlar torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olan qəhrəmanlarımızın portretlərini çəkirəm. Vətənpərvərlik mövzusu mənim rəsmlərimdə əsas yer tutur. Şəhidlərimizdən Muxtar Qasımlı, Polad Həşimov, Abbasəli İsmayılov, Mübariz İbrahimov və digərlərinin rəsmlərini çəkmişəm. Dərnək rəhbərimdən öyrəndiklərim yeni məlumatlar mənə çox kömək edir".

Mərkəzin Estetik tərbiyə, təsviri incəsənət və musiqi şöbəsinin baş metodisti, dekorativ əl işləri dərnəyinin rəhbəri Arzu Mustafayeva qeyd edir ki, dərnəyin 20 üzvü var ki, onlardan ikisi sağlamlıq imkanları məhdud uşaqdır. Muxtar respublikamızda bu sosial kateqoriyaya aid uşaqlara həmişə diqqət və qayğı göstərilir. Bu mənada, bizim mərkəzin də üzərinə böyük vəzifələr düşür. Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyasına, istedad və bacarıqlarının üzə çıxarılmasına çalışırıq. Onlar mənim dərnəyimdə müxtəlif vasitələrdən istifadə etməklə mücrü, gül, güldan, muncuqlardan ağac və müxtəlif əl işləri hazırlayırlar. Əsma Darçınlı fəal şagirdlərimdən biridir. Naxçıvan Qarnizonu tam orta məktəbində VII sinifdə təhsil alır, mütəmadi olaraq dərnəyə gəlir. Uşaqlıqdan rəsm çəkir, əl işləri hazırlayır. Burada öz bacarıqlarını daha da təkmilləşdirir.

Minurə Mürsəlova ebru dərnəyinin rəhbəridir. O, sənət haqqında ətraflı məlumat verərək qeyd etdi ki, su üzərində rəsm çəkmə sənəti olan ebru incəsənətin maraqlı növlərindəndir. Ebru sənəti tamamilə təbii materiallar əsasında, su üzərində aparılır. Bu sənət növü, xüsusilə də sağlamlıq imkanları məhdud uşaqlarda özgüvəni artırır, diqqət dağınıqlığını aradan qaldırır, beyni dincəldir, pozitiv enerji verir. Bir sözlə, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün hər cəhətdən faydalıdır. Ona görə bu sənətə həm də art-terapiya deyilir, yəni incəsənətlə bir növ müalicə üsuludur. Hazırda Fəridə Cəfərovaya bu sənətin sirlərini öyrədirəm. Çox gözəl əl qabiliyyəti vardır. Ötən il ebru sənəti üzrə müsabiqədə I yeri, bu il də muxtar respublika üzrə II yeri tutub. Sərgilərdə bir neçə dəfə diplomlar alıb. Çox bacarıqlıdır. Fəridənin gələcəkdə fərdi sərgisini də keçirəcəyik.

Qeyd edək ki, sağlamlıq imkanları məhdud istedadlı şəxslərin ölkə səviyyəli yaradıcılıq tədbirlərində iştirakına da xüsusi önəm verilir və sevindirici haldır ki, son dövrlərdə bu sahədə uğurlu nəticələr əldə olunur. Son olaraq, Bakı şəhərində 3 dekabr – Beynəlxalq Əlillər Günü ilə əlaqədar keçirilən XI Ümumrespublika Yaradıcılıq Sərgi-Müsabiqəsi də bu baxımdan yaddaqalan olub. Tədbirin məqsədi sağlamlıq imkanları məhdud olan şəxslərin istedad və qabiliyyətlərinin cəmiyyətə təqdim olunması, yaradıcılıq imkanlarının və cəmiyyətə inteqrasiyasının dəstəklənməsi idi. Sərgi-müsabiqədə Bakı və respublikamızın bölgələri üzrə sağlamlıq imkanları məhdud uşaqlar da daxil olmaqla, 217 nəfərin, ümumilikdə, 1346 əl işi nümayiş olunub. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə istedadlı sağlamlıq imkanları məhdud 14 müəllifin 138 əl işi də sözügedən tədbirə təqdim olunub. Naxçıvan təmsilçisi Ramil Əhmədovun, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovu təsvir etdiyi rəsm əsəri müsabiqənin ikinci yerinə layiq görülüb. Təqdim edilən yaradıcılıq nümunələri münsiflər heyəti tərəfindən sağlamlıq imkanları məhdud şəxslərin yaş qrupları da nəzərə alınmaqla 11 nominasiya üzrə qiymətləndirilib. Müvafiq nominasiyalar üzrə yer tutan müəlliflərə diplom və mükafatlar, həmçinin sərgi-müsabiqənin digər iştirakçılarına həvəsləndirici mükafatlar və təşəkkürnamələr təqdim olunub.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

Mütəxəssis sözü

# Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı elektron yeniliklərin tətbiqi vətəndaş məmnunluğunu artırır




*Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının həyatımızda oynadığı rol danılmazdır. Zaman keçdikcə rəqəmsal texnologiyalar müxtəlif sahələrə daha dərindən nüfuz edir. Son illərdə “Elektron hökumət” layihəsinin idarəetmədə geniş yayılması bir çox dövlət qurumlarının fəaliyyətində müxtəlif yeniliklərin tətbiqi ilə müşayiət olunur. Belə qurumlardan biri də Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətidir. Bəs bu gün xidmətdə hansı elektron yeniliklər tətbiq olunur, vətəndaş məmnuniyyəti necə təmin edilir? Suallarımızı xidmətin İnformasiya texnologiyaları və məlumat bazası şöbəsinin müdiri Arzu Məmmədov cavablandırır:*

– İlk olaraq bildirmək istərdim ki, informasiya-kommunikasiya texnologiyalarının daşınmaz əmlakın qeydiyyatı sahəsində tətbiqi xidmətlərin əhaliyə elektron formada çatdırılmasına və vətəndaş məmnunluğunun daha da artırılmasına zəmin yaradır. Sosial faktorlar və vətəndaş amilinin gücləndirilməsi prinsipləri nəzərə alınaraq daşınmaz əmlakın qeydiyyatı sisteminin inkişafı, xidmətlərin maksimum sadələşdirilməsi, prosedurların optimallaşdırılması və vətəndaş məmnunluğunun artırılması məqsədilə daşınmaz əmlakın qeydiyyatı sahəsində mütəmadi olaraq yeniliklər tətbiq edilir. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar xidmətlər sürətlə elektronlaşdırılır. Müasir informasiya-kommunikasiya texnologiyalarının daşınmaz əmlakın qeydiyyatı sahəsində tətbiq edilməsi qeydiyyat prosedurlarının xeyli sadələşdirilməsinə səbəb olmuşdur.

***– Bu gün Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində əhaliyə göstərilən xidmətlərin elektronlaşdırılması istiqamətində hansı işlər görülüb?***

– Təmsil etdiyim qurum son dövrlərdə fəaliyyət istiqaməti üzrə göstərdiyi xidmətlərin elektron formada təqdim olunması sahəsində mühüm işlər həyata keçirmişdir. Daşınmaz əmlakla bağlı xidmətlərin əksəriyyəti artıq elektronlaşdırılmışdır. Fəaliyyət istiqamətləri üzrə göstərilən xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim edilməsi məqsədilə xidmətin rəsmi internet səhifəsində *(emlak.nakhchivan.az)* “Elektron xidmətlər” portalı istifadəyə verilmişdir. Hazırda fiziki və hüquqi şəxslərə qəbul edilmiş normativ-hüquqi aktların tələbinə uyğun 23 növdə elektron xidmət göstərilir. Göstərilən xidmətlərə görə tələb olunan xidmət haqqının real vaxt rejimində onlayn qaydada ödənilməsi imkanı yaradılmışdır. Elektron çıxarışdan rahat istifadənin təmin edilməsi məqsədilə “Daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışın əldə edilməsi” və “Elektron çıxarışın yoxlanılması” xidmətləri də istifadəyə verilmişdir. “Elektron çıxarışın yoxlanılması” xidmətini seçərək elektron çıxarışın reyestr və qeydiyyat nömrələrini daxil etməklə elektron çıxarışın təsvirini əldə etmək mümkündür.

***– Yeri gəlmişkən bu gün xidmətə müraciət edənlərin mühüm bir qismi dövlət reyestrindən çıxarışlarla bağlı müraciət edir. Elektron çıxarışın vətəndaşlar üçün əhəmiyyətini necə izah edərdiniz?***

– Daşınmaz əmlakın dövlət reyestrindən çıxarışların hüquq sahiblərinə elektron formatda təqdim edilməsi imkanının yaradılması vətəndaşların daşınmaz əmlakla bağlı xidmətlərdən operativ şəkildə yararlanması üçün görülən tədbirlərin davamıdır. Çıxarışların elektron formada tərtib olunması əmlak idarəçiliyi sahəsində atılmış mühüm addımlardan biridir. Elektron çıxarışın tətbiqi təkrar qeydiyyat prosesini tamamilə elektronlaşdırıb, vətəndaş-məmur ünsiyyətini minimuma endirib, vətəndaşların əmlaklarını daha operativ şəkildə qeydiyyatdan keçirmələrinə imkan yaradıb. Müasir yanaşmaların tətbiq edildiyi elektron çıxarış kağız çıxarışın itirilməsi, yararsız hala düşməsi hallarına son qoyub. Artıq kağız çıxarışın başqa insanlar tərəfindən saxtalaşdırılması və qanunsuz istifadə edilməsi mümkün deyil. Hüquq sahibi qeydiyyat orqanına gəlmədən daşınmaz əmlaka dair çıxarışını “Elektron hökumət” portalında yaratdığı şəxsi kabinetindən elektron formada əldə edə bilir. Çıxarışlar barədə bütün məlumatlar şəxsin telefon nömrəsinə və elektron poçt ünvanına göndərilir. Bu məlumatda çıxarışın reyestr, qeydiyyat nömrələri, elektron çıxarışın yoxlanılması və ona bağlı keçid linki göstərilir. Həmin linkə daxil olaraq elektron çıxarışın təsvirini əldə etmək mümkündür. Hüquq sahibi daşınmaz əmlaklarına dair elektron imza ilə təsdiq edilmiş çıxarışlarına şəxsi kabinetində baxmaq üçün “Elektron xidmətlər” portalında Daşınmaz Əmlakın Dövlət Reyestrindən elektron çıxarışın əldə edilməsi” xidmətindən istifadə edə bilər.

***– Vətəndaşlar üçün maraqlı məqamlardan biri də xidmətlərdən istifadə zamanı elektron ödəmələrdən yararlanmaqdır.***

– Bəli, Hökumət Ödəniş Portalı ilə daşınmaz əmlakın elektron qeydiyyat sistemi arasında inteqrasiyanın təmin edilməsi daşınmaz əmlak üzərində əməliyyatların aparılması zamanı tələb olunan dövlət rüsumunun və xidmət haqlarının onlayn qaydada ödənilməsinə şərait yaradıb. Müraciət daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edildikdə tələb olunan dövlət rüsumu və xidmət haqqı sistem tərəfindən hesablanır və bu barədə ərizəçiyə SMS bildirişi göndərilir. Vətəndaşlar müvafiq xidmətlər üçün tələb olunan dövlət rüsumu və xidmət haqlarını müraciətin qeydiyyat nömrəsinə uyğun Hökumət Ödəniş Portalı və ödəmə terminalları vasitəsilə, eləcə də xidmətin rəsmi internet səhifəsi üzərindən onlayn qaydada ödəyə bilərlər.

***– Bir məsələyə də aydınlıq gətirməkyerinə düşərdi. Məlumdur ki, daşınmaz əmlakla bağlı xidmətlərdən istifadə edərkən notariat xidmətlərinə də ehtiyac duyulur. Bu sahədə hansısa bir yenilik varmı?***

– Qeyd etmək istərdim ki, Daşınmaz Əmlakın Dövlət Reyestri ilə Ümumi Notariat Elektron Məlumat Sistemi arasında avtomatlaşdırılmış məlumat mübadiləsinin təmin edilməsi daşınmaz əmlaka dair notariat ofislərində aparılan əməliyyatların rahat formada həyata keçirilməsinə şərait yaradıb. Notariat ofislərində daşınmaz əmlakla bağlı müqavilələrin bağlanılması üçün elektron informasiya sistemləri vasitəsilə daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına dair dövlət reyestrindən məlumatların real vaxt rejimində əldə edilməsi təmin olunub. Notariat orqanları təsdiq olunmuş müqaviləni real vaxt rejimində qeydiyyat orqanına göndərə bilərlər. Həmçinin hüquq sahibinin istəyindən asılı olaraq daşınmaz əmlaka dair bağlanmış müqavilə qeydiyyata alınması üçün müraciət formasında elektron informasiya sistemləri vasitəsilə daşınmaz əmlakın elektron qeydiyyat sisteminə göndərilə bilər. Ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, daşınmaz əmlakın qeydiyyatı sisteminin təkmilləşdirilməsi sənədləşdirmə prosesinə sərf olunan vaxtı minimuma endirib. Daşınmaz əmlaka dair sorğuların və müraciətlərin operativ təmin edilməsinə geniş zəmin yaranıb. Onlayn rejimdə qarşılıqlı fəaliyyətin tətbiqi hüquq sahiblərinə daşınmaz əmlakla bağlı hüquqi əməliyyatların kifayət qədər sürətli və sadə şəkildə həyata keçirilməsinə imkan yaradıb.

***– Müsahibə üçün sağ olun.***

– Sağ olun.

**Çingiz ƏHMƏDOV**
***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

*Naxçıvan Dövlət Universitetində təhsil alan xarici tələbələrin hazırladığı şeir və mahnılardan ibarət konsert-kompozisiya təşkil edilib.*

# Əcnəbi tələbələrin hazırladığı kompozisiya maraqla qarşılanıb



Tibb üzrə hazırlıq kursunun dinləyicisi Yunus Əmrə Əzilməzin aparıcı olduğu tədbirdə müxtəlif ixtisaslar üzrə əcnəbi tələbələrin ifasında bədii qiraəti, müxtəlif mahnılar səsləndirilib. Əcnəbi tələbələrdən ibarət vokal qrupu Vasif Allahverdiyevin “Azərbaycanım”, Aygün Səmədzadənin “Azərbaycan” mahnılarını xorda ifa ediblər.

Müalicə işi ixtisası üzrə III kursunda təhsil alan nigeriyalı Jozef Okpamen Azərbaycan və türk mahnılarını ustalıqla ifa edib.

Tələbələr Cəfər Cabbarlının “Bayraq”, universitetin müəllimi, şair Xanəli Kərimlinin “Bayrağını uca qaldır, ana Vətən”, “Gözün aydın, Azərbaycan!” şeirlərini qiraət ediblər. Türkiyəli tələbələrin üstünlük təşkil etdiyi konsertdə Azərbaycan və türk mahnılarından ibarət solo və xor ifalarına yer verilib.

Sonda universitetin rektoru, dosent Elbrus İsayev tədbiri yüksək qiymətləndirib. Bildirilib ki, muxtar respublikada təhsil alan əcnəbi tələbələr də yerli tələbələr kimi yüksək dövlət qayğısı ilə əhatə olunub, onlar Naxçıvan Dövlət Universitetində ali təhsil almaqla bərabər, ictimai-mədəni işlərdə də fəallıq nümayiş etdirirlər.

Sonda fəal iştirak edən tələbələr və tədbirdə əməyi keçənlər diploma təltif olunublar.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Ötən ay muxtar respublika muzeylərinə 345 yeni eksponat təqdim edilib

Muxtar respublikada mədəniyyətin təbliği və sakinlərin mədəni istirahətinin təşkili məqsədilə müxtəlifməzmunlu tədbirlərin keçirilməsi, əlamətdar və tarixi günlər, eləcə də tanınmış şəxsiyyətlərin yubiley və anım günləri ilə bağlı sərgilərin nümayişi noyabr ayında da davam etdirilmişdir.

Ötən ay Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu tərəfindən Məhəmməd Tağı Sidqinin ev-muzeyinə görkəmli pedaqoqa aid əlyazma nüsxələrinin, həmçinin Hüseyn Cavidin Naxçıvan şəhərindəki ev-muzeyində “Cavidşünaslıq” çoxcildliyinin təqdimatı keçirilmiş, Naxçıvan Dövlət Musiqili Dram Teatrında Nikolay Vasilyeviç Qoqolun “Müfəttiş” əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın nümayişi olmuşdur.

Hesabat dövründə hamiliklə bağlı 3 açıq dərs, 1 kitab müzakirəsi, 1 mühazirə və film nümayişi, 1 ustad dərsi olmaqla, ümumilikdə, 6 tədbir keçirilmişdir. “Əllə toxunmuş xalçaların reyestri sistemi”nə daxil olan 2 xalça haqqında *“naxcivan_muzeyleri”* “Instagram” səhifəsində məlumatlar paylaşılmışdır.

Aşıq Ələsgərin 200 illik yubileyi ilə əlaqədar Babək və Culfa Rayon Mədəniyyət şöbələrinin tabeliyində olan uşaq musiqi məktəblərinin saz ixtisası üzrə müəllim və şagirdlərinə Aşıq Ələsgərin yaradıcılığından bəhs edən ustad dərs təşkil olunmuş, Babək Rayon Mədəniyyət Sarayında rayon Xalq Teatrının hazırladığı “Ələsgərlə dindi sazım” adlı kompozisiya tamaşaçılara təqdim edilmişdir. “Nizami Gəncəvi ili” ilə bağlı Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyində “Poeziya dünyasının dahisi – Nizami Gəncəvi” adlı tədbir keçirilmiş, Ordubad Rayon Xalq Teatrının Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar hazırladığı kompozisiya nümayiş olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il oktyabrın 16-da Kamil Əliyevin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında qeyd olunması ilə bağlı Sərəncam imzalamış, “Tədbirlər Planı” təsdiq olunmuşdur. “Tədbirlər Planı”nın icrası ilə əlaqədar Naxçıvan Dövlət Xalça Muzeyində Naxçıvan Müəllimlər İnstitutunun və “Naxçıvan” Universitetinin tələbələrinə açıq dərs keçilmişdir.

Ötən ay muxtar respublikada fəaliyyət göstərən 40-dan çox nazirlik, komitə və baş idarələrin, müəssisə və təşkilatların muzeylərlə tanışlığı təmin edilmiş, muxtar respublikaya səfər edən qonaqların, rəsmi nümayəndə heyətlərinin muzeylərlə tanışlığı zamanı onlara nümunəvi muzey xidməti göstərilmişdir. Noyabr ayında muxtar diyarda fəaliyyət göstərən muzeyləri 48 min 492 yerli, 8 min 3680 əcnəbi olmaqla, ümumilikdə, 57 min 172 tamaşaçı ziyarət etmiş, bu muzeylərə 345 yeni eksponat daxil olmuşdur.

Hesabat ayında muxtar respublikanın ümumtəhsil məktəbləri arasında interaktiv dərslərin keçilməsi davam etdirilmişdir. Noyabr ayında Babək, Şahbuz, Culfa və Şərur Rayon Tarix-Diyarşünaslıq muzeyləri əməkdaşlarının kənd sakinləri ilə 4 görüşü olmuşdur. Ötən ay muxtar respublikanın muzeylərində, ümumilikdə, 15 tədbir keçirilmiş, 2 sərgi qurulmuşdur. Bundan başqa, “Naxçıvan” Universitetinin Turizm və otelçilik ixtisası üzrə IV kurs tələbələrinin muzeylərdə təcrübə keçmələri təmin edilmiş, həmçinin ümumtəhsil məktəblərinin şagirdləri üçün də muzeylərdə açıq dərs keçilmiş, mühazirə oxunmuşdur.

Ötən ay da muzeylər tərəfindən Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda mübarizədə şəhid olmuş milli qəhrəmanların doğum və anım günləri münasibətilə, əlamətdar və tarixi günlərdən, tanınmış şəxsiyyətlərdən və digər bu kimi mövzulardan bəhs edən 340 sayda material hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır.

“Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan kitabların müzakirəsi noyabr ayında da davam etdirilmişdir. Ötən ay “Mütaliə günü” və “Nağıl günü” ilə bağlı muxtar respublikanın kitabxanaları tərəfindən 46 tədbir keçirilmiş, həmçinin sağlamlıq imkanları məhdud 22 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Hesabat ayında muxtar respublika kitabxanalarına 76 adda 169 nüsxə çap məhsulu daxil olmuş, 1274 yeni oxucu müraciət etmiş, oxucu gəlişi 9 min 667, kitab verilişi isə 47 min 132 nüsxə olmuşdur. Bundan başqa, ötən ay elektron kataloqa 702 adda kitab işlənərək buradakı kitabların sayı 28 min 401-ə, şəbəkəyə işlənmiş (PDF) kitabların sayı 3 min 601-ə çatdırılmışdır. Ay ərzində elektron kitabxanadan 351 lokal, 530 qlobal olmaqla, ümumilikdə, 881 oxucu istifadə etmişdir.

Xalq yaradıcılığının öyrənilməsi, yaşadılması və gələcək nəsillərə çatdırılması məqsədilə noyabr ayında Mədəniyyət üzrə Elmi-Metodik Mərkəz tərəfindən xalq yaradıcılığı ilə bağlı 1 videomaterial hazırlanmış, həmçinin mərkəzin hazırladığı “Vətən qəhrəmanları” adlı ssenari mətni əsasında Ordubad Rayon Mədəniyyət Şöbəsinin tabeliyindəki klub müəssisələrinin əməkdaşları tərəfindən hazırlanmış kompozisiyanın Naxçıvan Dövlət Film Fondu tərəfindən çəkilişi aparılmışdır.

Hesabat dövründə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı K.Çapekin “Ana”, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı Nizami Gəncəvinin “Yeddi gözəl” əsərindən götürülmüş “Fitnə”, Naxçıvan Dövlət Uşaq Teatrı isə Nizami Gəncəvinin “Sirlər xəzinəsi” poemasından “Ovçu ilə itin və tülkünün hekayəti” əsasında hazırlanan tamaşaların məşqlərini davam etdirmişdir.

Nazirliyin tabeliyində olan müəssisələrdə çalışan gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə noyabr ayında “Xudafərin” Gənclər Birliyinin üzvləri arasında “Mən ki gözəl deyildim” filminin onlayn müzakirəsi aparılmış, nazirliyin Gənclər Təşkilatının üzvləri arasında “XX əsrin əvvəllərində Azərbaycan ədəbi mühiti: romantizm cərəyanı” adlı maarifləndirici tədbir keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***


***İtmişdir***

Şahbuz rayonunun Kolanı kəndində yaşayan Novruzov Elsevər Mənaf oğlunun adına verilmiş 04.04.2015-ci il tarixli MH-0041781 seriya nömrəli dövlət reyestrindən çıxarış və 30.03.2015-ci il tarixli AA-010907 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Güntac Şahməmmədli**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 1025**